# Azərbaycanın pravoslav xristian icmasına

**Hörmətli həmvətənlər!**

Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Azərbaycanda əsrlərdən bəri xristian dininin mənsubları digər xalqların və konfessiyaların nümayəndələri ilə birgə mehriban dostluq, sülh və əmin-amanlıq mühitində yaşayırlar. Ölkəmizdə etnik-mədəni müxtəlifliyin və zəngin tolerantlıq ənənələrinin qorunub saxlanılması, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına qlobal miqyasda dəstək göstərilməsi apardığımız siyasətin başlıca istiqamətlərindəndir.

Cəmiyyətimizdə demokratik, hüquqi dövlətçilik prinsipləri, mütərəqqi dövlət - din münasibətləri bərqərar edilmişdir. Nümunəvi mültikulturalizm məkanı kimi tanınan Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs eyni hüquq və azadlıqlara malikdir. Xristian həmvətənlərimiz də inanclarına uyğun ayin və mərasimləri sərbəst şəkildə həyata keçirməklə öz adət-ənənələrini layiqincə yaşadır, vətəndaşlıq borcunu vicdanla yerinə yetirərək, Azərbaycanın ictimai-siyasi, sosial-mədəni həyatında yaxından iştirak edirlər.

Yeniliyin, gələcəyə inamın, insanlar arasında xeyirxahlıq və şəfqət duyğularının rəmzi olan Milad bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Qoy bu əziz bayram ailələrinizə sevinc və səadət, süfrələrinizə bol ruzi-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 5 yanvar 2025-ci il*

# Şura iclası keçirilmişdir

29 dekabr 2024-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətində cari ildə müəyyən edilən tədbirlərin icra vəziyyəti və 2025-ci ildə qarşıda duran vəzifələrə dair növbəti şura iclası keçirilib. İclasda RİH başçısı yanında Şuranın üzvləri, İnzibati ərazi dairəsi üzrə nümayəndələr, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri iştirak ediblər. Şura iclasını açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev 2024-cü ilin yekunu və 2025-ci ildə qarşıda duran vəzifələr barədə məlumat verib. Qeyd olunub ki, ötən dövr ərzində nəzərdə tutulmuş bütün məsələlər icra olunmuş, qış mövsümünə hazırlıq işləri başa çatdırılmışdır. Sonda Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 iyun 2024-cü il tarixli sərəncamı ilə təltif edilmiş Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya "Tərəqqi" medalı, bir qrup dövlət qulluqçusuna isə dövlət qulluğunda səmərəli fəaliyyətinə və rayonun ictimai həyatında fəal iştirakına görə rayon icra hakimiyyətinin Fəxri Fərmanları təqdim edilmiş və bütün tədbir iştirakçıları "31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və Yeni il bayramı münasibəti ilə təbrik edilmişdir.





## "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Qəbələ rayonu ərazisində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təbliğat və təşviqatın aparılması məqsədilə açıq və qapalı yerlərin ayrılması barədə

(Əvvəli 3-cü səhifədə).

| Sıra sayı | Bələdiyyənin adı | Əhatə etdiyi ərazi vahidləri | Açıq yerlər | | | Qapalı yerlər | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Ünvanı | Tutumu | Aid olduğu seçki dairəsi | Ünvanı | Tutumu | Aid olduğu seçki dairəsi |
| | Qəbələ rayonu: 12 bələdiyyə | | | | | | | |
| 9 | Vəndam | Bunud | Bunud kənd klubunun həyəti | 600 | 116 saylı Qəbələ | Bunud kənd klubu | 40 | 116 saylı Qəbələ |
| | | Həzrə | Həzrə kəndinin mərkəzi | 100 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Məmmədağalı | Məmmədağalı kənd tam orta məktəbin həyəti | 200 | 116 saylı Qəbələ | Məmmədağalı kənd tam orta məktəbin sinif otağı | 30 | 116 saylı Qəbələ |
| | | Seyidqışlaq | Seyidqışlaq kənd tam orta məktəbin həyəti | 150 | 116 saylı Qəbələ | Seyidqışlaq kənd tam orta məktəbin sinif otağı | 40 | 116 saylı Qəbələ |
| | | Vəndam | Vəndam qəsəbə mədəniyyət evinin həyəti | 1100 | 116 saylı Qəbələ | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin akt zalı | 200 | 116 saylı Qəbələ |
| 10 | Yeni Dizaxlı | Corlu | Corlu kəndinin mərkəzi | 100 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Çuxur Qəbələ | Çuxur Qəbələ kənd mədəniyyət einin həyəti | 300 | 116 saylı Qəbələ | Çuxur Qəbələ kənd mədəniyyət evi | 100 | 116 saylı Qəbələ |
| | | Dizaxlı | Dizaxlı kənd tam orta məktəbin həyəti | 200 | 116 saylı Qəbələ | Dizaxlı kənd tam orta məktəbin sinif otağı | 40 | 116 saylı Qəbələ |
| | | İmamlı | İmamlı kənd tam orta məktəbin həyəti | 150 | 116 saylı Qəbələ | İmamlı kənd tam orta məktəbin sinif otağı | 40 | 116 saylı Qəbələ |
| | | Mirzəbəyli | Mirzəbəyli kəndinin mərkəzindəki meydan | 500 | 116 saylı Qəbələ | Mirzəbəyli kənd tam orta məktəbin akt zalı | 55 | 116 saylı Qəbələ |
| | | Sarıhacallı | Sarıhacallı kəndinin mərkəzi | 40 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Tövlə | Tövlə kənd tam orta məktəbin həyəti | 250 | 116 saylı Qəbələ | Tövlə kənd tam orta məktəbin akt zalı | 40 | 116 saylı Qəbələ |
| | | Yeni Dizaxlı | Yeni Dizaxlı kənd tam orta məktəbin həyəti | 500 | 116 saylı Qəbələ | Yeni Dizaxlı kənd tam orta məktəbin akt zalı | 80 | 116 saylı Qəbələ |
| | | Zirik | Zirik kənd tam orta məktəbin həyəti | 100 | 116 saylı Qəbələ | Zirik kənd tam orta məktəbin sinif otağı | 35 | 116 saylı Qəbələ |
| 11 | Yenikənd | Bılıx | Bılıx kəndinin mərkəzi | 100 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Əmirvan | Əmirvan kənd klubunun həyəti | 300 | 116 saylı Qəbələ | Əmirvan kənd klubu | 40 | 116 saylı Qəbələ |
| | | Kiçik Əmili | Kiçik Əmili kənd tam orta məktəbin həyəti | 200 | 116 saylı Qəbələ | Kiçik Əmili kənd tam orta məktəbin sinif otağı | 30 | 116 saylı Qəbələ |
| | | Məlikli | Məlikli kənd tam orta məktəbin həyəti | 350 | 116 saylı Qəbələ | Məlikli kənd tam orta məktəbin sinif otağı | 50 | 116 saylı Qəbələ |
| | | Mollaşıxalı | Mollaşıxalı kəndinin mərkəzi | 80 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Siləyli | Siləyli kəndinin mərkəzi | 60 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Sirt Yengicə | Sırt Yengicə kəndinin mərkəzi | 60 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Topbağ | Topbağ kənd ümumi orta məktəbin həyəti | 200 | 116 saylı Qəbələ | Topbağ kənd ümumi orta məktəbin sinif otağı | 40 | 116 saylı Qəbələ |
| | | Yenikənd | Yenikənd kənd tam orta məktəbin həyəti | 400 | 116 saylı Qəbələ | Yenikənd kənd tam orta məktəbin akt zalı | 60 | 116 saylı Qəbələ |
| | | Zalam | Zalam kənd tam orta məktəbin həyəti | 600 | 116 saylı Qəbələ | Zalam kənd tam orta məktəbin akt zalı | 50 | 116 saylı Qəbələ |
| 12 | Zarağan | Aydınqışlaq | Aydınqışlaq kəndin mərkəzindəki meydan | 400 | 116 saylı Qəbələ | Aydınqışlaq kənd tam orta məkətbin akt zalı | 40 | 116 saylı Qəbələ |
| | | Daşca | Daşca kənd tam orta məkətəbin həyəti | 150 | 116 saylı Qəbələ | - | - | 116 saylı Qəbələ |
| | | Zarağan | Zarağan Zarağan kənd tam orta məkətbin həyəti | 500 | 116 saylı Qəbələ | Zarağan kənd tam orta məkətbin akt zalı | 140 | 116 saylı Qəbələ |